**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№387/6** **14 may 2026-cı il**

**2026-cı il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramının təsdiq edilməsi barədə**

"Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununu, "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnaməni və Azərbaycan Respublikası Auditorlar Palatasının 2026-cı il üzrə iş planının 7.1-ci "2026-cı il üzrə IFAC və ACCA-ın beynəlxalq təhsil standartlarının tələbləri nəzərə alınmaqla auditorların ixtisasartırma kurslarının tədris proqramının və qrafikinin hazırlanması" bəndini, auditor fəaliyyətinin beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi, auditorların peşə bilik və bacarıqlarının artırılması, auditor xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, beynəlxalq qabaqcıl təcrübənin tətbiqinin genişləndirilməsi və müasir audit mühitində yaranan risklərin idarə olunması zərurətini nəzərə alaraq Auditorlar Palatasının Kadr hazırlığı idarəsi tərəfindən hazırlanmış "2026-cı il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramı"nın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR**:

1. "2026-cı il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramı" təsdiq edilsin (əlavə olunur).

2. Auditorlar Palatasının Kadr hazırlığı idarəsinə (E.Hacıyeva) tapşırılsın ki:

2.1. tədris prosesində Beynəlxalq Audit Standartlarının, Keyfiyyətin İdarə Edilməsi üzrə Beynəlxalq Standartların, Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının, Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə), FATF tövsiyələrinin və digər aidiyyəti normativ hüquqi aktların tələblərinə riayət olunması təmin edilsin;

2.2. tədris proqramı çərçivəsində auditorların auditin sənədləşdirilməsi, riskəsaslı audit yanaşmaları, maliyyə fırıldaqları və uyğunluq risklərinin qiymətləndirilməsi, konsolidə edilmiş maliyyə hesabatlarının auditi, kibertəhlükəsizlik, süni intellekt texnologiyalarının auditdə tətbiqi, peşə etikası və keyfiyyətə nəzarət sahələri üzrə nəzəri və praktiki biliklərinin artırılması təmin edilsin;

2.3. tədris proqramına uyğun olaraq ixtisasartırma kurslarının təşkili və keçirilməsi təmin edilsin;

2.4. təlimlərin yüksək keyfiyyətlə keçirilməsi, tədris prosesində müasir metodologiya və beynəlxalq təcrübənin tətbiqi təmin edilsin;

2.5. cari ilin 15 avqust tarixinədək tədris materiallarının və metodiki vəsaitlərin auditorlara çatdırılması təmin edilsin;

2.6. təlim prosesinə dair videomaterialların gündəlik olaraq Auditorlar Palatasının rəsmi internet resurslarında yerləşdirilməsi təmin edilsin.

3. Bu qərarın və "2026-cı il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramı"nın mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**